*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 aprel 2019-cu il № 30 (2347) Qiymәti 30 qəpik


# Raket və artilleriya bölmələri döyüş atışları icra edib



*Bu gün ordumuzun günün tələbləri səviyyəsində formalaşması və inkişaf etməsi müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biridir.*

Dövlət quruculuğunun tərkib hissəsi olduğu nəzərə alınaraq Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin qüdrətinin nümunəsi, xalqın iftixar yeri olan Azərbaycan Ordusunun modernləşdirilməsi, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində çox mühüm işlər görülür. Müasir silahlar, sursatlar, hərbi texnikalar alınır və bu proses davam etdirilir. Son illər ərzində hərbi potensialımız yüksək dərəcədə artıb. Azərbaycan Ordusu müasir tipli silahlar, zirehli texnikalar, rabitə vasitələri, döyüş təyyarələri, pilotsuz uçuş aparatları və artilleriya qurğuları ilə təchiz olunub. Bu gün Azərbaycanda hərbi təyinatlı məhsulların istehsalı prosesi də uğurla həyata keçirilir və biz bu sahədə də böyük nailiyyətlər əldə etmişik. Bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqazda ən güclü orduya malik ölkə statusunu daşıyır.

Son illər keçirilən möhtəşəm hərbi paradlar da Azərbaycan Ordusunun həm güc və qüdrətini, həm də modernləşdiyini nümayiş etdirir. Paradlar və son zamanlar əldə edilən Aprel və Günnüt zəfərləri də Azərbaycan Ordusunun qüdrətinin təntənəsidir. Azərbaycan Ordusunun qüdrətlənməsini və işğal olunmuş ərazilərimizi istənilən an azad etməyə qadir mükəmməl bir orduya çevrilməsini sübut edən amillərdən biri də döyüş hazırlığının tərkib hissəsi olan təlimlərdir.

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə naziri NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru ilə görüşüb



*Aprelin 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru general-leytenant Yan Broeksin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfərin NATO-nun yaranmasının 70 illiyi və Azərbaycan-NATO əməkdaşlığının 25-ci ildönümünə təsadüf etdiyini vurğulayan Müdafiə naziri Alyansla əlaqələrin çoxşaxəli olduğunu və bu tərəfdaşlığın yubileyinin qeyd olunmasına dövlət səviyyəsində xüsusi diqqətin ayrıldığını bildirib.

Müdafiə naziri NATO-nun ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi siyasi dəstəyi xatırladaraq bunun ümumilikdə Avroatlantik məkanda təhlükəsizliyin möhkəmlənməsinə, eləcə də regional sülhə və sabitliyə xidmət etdiyini nəzərə çatdırıb.

Y.Broeks də öz növbəsində Azərbaycan-NATO əlaqələrini yüksək qiymətləndirərək sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəni, Alyansın bir çox proqramlarında Azərbaycan hərbçilərinin fəal iştirakını, habelə NATO-nun müxtəlif qərargahlarında xidmət edən zabitlərimizin hazırlığını xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən əməkdaşlıq proqramları və layihələri çərçivəsində əməliyyat hazırlığı, təlimlərin keçirilməsi, hərbi təhsilin inkişafı, qüvvələr arasında qarşılıqlı uzlaşmanın əldə olunması məsələləri müzakirə edilib və əməkdaşlığın inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

# “Veteranlarla bağlı ardıcıl tədbirlərin həyata keçirilməsi Prezidentin onlara diqqət və qayğısının göstəricisidir”

Prezident İlham Əliyev "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır" şüarını müntəzəm olaraq gördüyü işlərlə gerçəkləşdirir. Dövlətimizin başçısı hər bir vətəndaşın, Vətən və xalq qarşısında xidmətləri olan şəxslərin, o cümlədən ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial məsələlərinin həllini hər zaman prioritet vəzifə hesab edir. Dövlətimizin başçısının "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Fərmanı bu istiqamətdə növbəti mühüm addımdır.

Bu fikirləri AZƏRTAC-a Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov deyib.

C.Xəlilov bildirib ki, Azərbaycanın iqtisadi qüdrətinin artması həm ölkənin müdafiə potensialının gücləndirilməsi, həm də hərbi qulluqçuların sosial müdafiəsinin etibarlı təmin edilməsi üçün şərait yaradıb. “Azərbaycanda veteranların, ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.”

Respublika Veteranlar Təşkilatının sədr müavini vurğulayıb ki, Prezident İlham Əliyev bu Fərmanla bir daha təsdiq etdi ki, Azərbaycan vətəndaşlarının qayğı və problemləri dövlətin daim nəzarətindədir. Dövlətimizin başçısının bu məqsədlə həyata keçirdiyi ardıcıl sosial siyasət gələcəkdə daha da gücləndiriləcək.

# Müdafiə naziri HHQ-nin təlim-məşq mərkəzinin açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) modernləşdirilməsi çərçivəsində həyata keçirilən idarəetmə sisteminin təkmilləşdirilməsi və yüksək texniki standartlar səviyyəsinə çatdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.*



Aprelin 18-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Aviasiya təmiri zavodunda olub. Müdafiə nazirinə təyyarə və helikopter aqreqatlarının, mühərrik və reduktorlarının, aviasiya texnika və avadanlığının, eləcə də radioelektron avadanlıq və aviasiya silahlarının təmiri sexlərində həyata keçirilən cari fəaliyyətlər barədə məruzə olunub. Nazir aviasiya vasitələrinin hazırlığı, aqreqatların cari təmiri və reqlament işlərinin gedişi ilə maraqlanıb.

Sonra Müdafiə naziri HHQ-nin MİQ-29 qırıcı təyyarələrinin təlim-məşq mərkəzinin açılışında iştirak edib.

General-polkovnik Zakir Həsənov mərkəzin aviasiya mühəndisləri, aviasiya silahları, uçuşların idarəolunması və təhlili siniflərində olub, hərbi pilotların hazırlıq məşqlərini izləyib və müvafiq tapşırıqlar verib. Müdafiə nazirinə məruzə olunub ki, burada quraşdırılmış simulyasiya qurğuları eyni vaxtda iki və ya dörd təyyarənin uçuşunu təmin etməyə imkan verir.

Müdafiə nazirinə uçuş heyəti üçün nəzərdə tutulan yüksəklik ləvazimatları və avadanlıqları nümayiş etdirilib.

Mərkəzdə yaradılan şəraitlə tanış olduqdan sonra Müdafiə naziri hərbi pilotlarla müşavirə keçirib və onların qarşısında konkret tapşırıqlar qoyub.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi uçuş heyəti ilə birlikdə nahar edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Raket və artilleriya bölmələri döyüş atışları icra edib



**(Əvvəli 1-ci səhifədə)**

Təlimlərin əhəmiyyəti nəzərə alınaraq bu günlərdə Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq cəbhəboyu zonada yerləşən raket və artilleriya bölmələrinin döyüş atışlı məşğələləri keçirilib.

Məşğələlər zamanı bölmələr marş icra etmə, cəmləşmə rayonlarına çıxma və digər tapşırıqları yerinə yetiriblər.

Raket və artilleriya bölmələri şərti düşmənin müdafiəsinin dərinliyində yerləşən hədəflərinə zərbələr endirməklə döyüş atışları icra ediblər.

Azərbaycan üçün hələ ki, müharibə başa çatmayıb, bu müharibə torpaqlarımız işğaldan azad edildəndən sonra başa çatacaq. Ona görə də təlimlərin keçirilməsi əsgərlərimizin qələbəsinə vəsilə olmaq məqsədini daşıyır. Bu baxımdan bugünkü təlim prosesini Qələbəyə doğru atılan bir addım hesab etmək olar. Təlimlər deyir ki, Azərbaycan torpaqları mütləq işğaldan azad olunacaq və yurdumuzun hər qarışında üçrəngli bayrağımız dalğalanacaq.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan ilə Pakistan arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi yolları müzakirə edilib

Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin federal təhsil və peşəkar təlim, milli tarix və ədəbi irs üzrə federal naziri Şəfqət Mahmud ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ortaq dəyərlərə malik Azərbaycan və Pakistanın təlim-təhsil, eləcə də milli irs sahələrində əməkdaşlıq etdikləri, beynəlxalq və regional təşkilatlar çərçivəsində hər zaman bir-birlərini dəstəklədikləri vurğulanıb, birgə layihələrin və qarşılıqlı səfərlərin artırılmasının önəmi qeyd edilib.

Şəfqət Mahmud Azərbaycana səfərini xatırladaraq ölkəmizin sürətlə inkişaf etdiyini vurğulayıb. O, Azərbaycan ilə dostluq və qardaşlıq əlaqələrinin daha da inkişafının, ölkələrimiz arasında mövcud etimadın davam etdirilməsinin önəmli olduğunu bildirib.

Səfir müasir Azərbaycanın artıq 30 ildən artıqdır ki, Ermənistanın təcavüzkar siyasəti ilə üzləşdiyini, Dağlıq Qarabağ və ətraf rayonların işğal olunduğunu, lakin qarşılaşdığı bu təcavüz və çətinliklərə baxmayaraq, bütün sahələr üzrə inkişaf etdiyini, Azərbaycanda təhsilin səviyyəsinin ilbəil yüksəldiyini, savadlılığın 99 faiz olduğunu diqqətə çatdırıb.

# Naxçıvan Hərbi Qarnizonunun Təlim-Tədris Mərkəzində komanda-qərargah təlimləri keçirilir

*Aprelin 18-də Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının uzlaşdırılmış plan üzrə kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbov təlimi izləyib.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün alınmış xidməti avtomobillərə baxış olub. Bildirilib ki, hərbi hissələr müasir döyüş texnikaları ilə yanaşı, həm də xidməti avtomobillərlə təmin olunur. Yeni alınmış 10 ədəd "NİVA" markalı xidməti avtomobil hərbi hissələrin komandir və rəis heyətinin istifadəsinə veriləcək.

Sonra təlim başlayıb.

Məlumat verilib ki, Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının hücum əməliyyatlarının qarşılıqlı əlaqəsini koordinasiya etmək, döyüşə və səfərbərliyə hazırolma səviyyəsini artırmaq məqsədi ilə yaradılmış Təlim-Tədris Mərkəzinin Simulyasiya Mərkəzi 81 kompüterdən, ümumilikdə isə 20 otaqdan və təlim nəticələrinin təhlil edilməsi üçün 90 yerlik zaldan ibarətdir. Simulyasiya Mərkəzinin əsas üstünlüyü burada birtərəfli təlimlərlə yanaşı, ikitərəfli üçpilləli təlimlərin də keçirilməsi, bölük, tabor və briqada səviyyəsində real vaxt rejimində fəaliyyət göstərməsidir. Kompüter dəstəkli komanda-qərargah təlimlərinin keçirilməsinin əsas məqsədi komandir və qərargah zabitlərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, eləcə də onların əməliyyatın planlaşdırılması və vəziyyətin qiymətləndirilməsi üzrə bacarıqlarının inkişaf etdirilməsindən ibarətdir.





"Sakarya" və "Qasırğa" yaylım atəşli reaktiv sistemlərin simulyasiya sinfi avtomatlaşdırılmış idarəetmə sistemi ilə təchiz olunub. Tədris sinfi 6 döyüş maşınından, batareya komandirinin idarəetmə maşınından, meteomaşını simulyasiya edən kompüterdən, məşğələ rəhbərinin iş yerinin kompüterindən və şəbəkə mərkəzindən ibarətdir. Burada divizion və batareya tərkibində atəş hazırlıqlarının hazırlanması və döyüş maşınlarının avtomatik olaraq hədəfə tuşlanması şəxsi heyətə öyrədilir.

Döyüş və piyada döyüş maşınları "BMP2" və "BMP3", "T72" və "T90" trenajorlarda idarə edilib və müxtəlif döyüş tapşırıqları yerinə yetirilib. Tank əleyhinə bölmələr üçün nəzərdə tutulan raket kompleksləri daxili otaq trenajorları operator və təlimatçı stansiyaları olmaqla 2 hissədən ibarətdir. Bu da məşğələ zamanı təlimatçıya bütün atəş ardıcıllığını izləməyə, atışdan əvvəl və sonra ərazi görüntüsünü müşahidə etməyə imkan verir. Həmçinin kompüterdə döyüş sahəsinin simulyasiya olunmuş görüntüsü əks olunur.

Qeyd olunub ki, tank əleyhinə məşq qurğuları döyüş sahəsinin simulyasiya olunmuş görüntüsündə hərəkətsiz və hərəkət edən hədəflərə döyüş raketlərindən istifadə etmədən atəş tapşırıqlarının yerinə yetirilməsini təmin edir. Eyni zamanda, atəş tapşırıqları yerinə yetirilərkən hədəfi izləməyə imkan yaradır, fərdi və manqa tərkibində tapşırığın yerinə yetirilməsini qiymətləndirir. Kompüterli artilleriya sinfində divizion və batareya tərkibində sutkanın işıqlı və qaranlıq vaxtında döyüş sursatı sərf etmədən atəş tapşırıqları icra edilib. Artilleriyanın taktika sinfində isə zabit heyəti ilə sinif şəraitində taktiki məşğələlər keçirilib, taktiki qrup çalışmaları yerinə yetirilib, taktiki və komanda-qərargah təlimlərinin keçirilməsindən əvvəl zabitlərin hazırlanması və taktiki hazırlıqdan məqbulların qəbul edilməsi prosesi həyata keçirilib.

Kompüterlə və digər avadanlıqlarla təmin olunmuş "Qvozdika" simulyasiya sinfində avtomatlaşdırılmış idarəetmə sistemi ilə divizion və batareya tərkibində hədəf göstəriciləri müəyyən edilib. Tibbi hazırlıq, avtomobil texnikası, zirehli texnikaların idarə edilməsi, raket artilleriya silahları, qarovul, kəşfiyyat, hərbi topoqrafiya, kütləvi qırğın silahlarından mühafizə, rabitə, mühəndis və hava hücumundan müdafiə siniflərində də müvafiq sahələr üzrə məşğələlər keçirilib. Xüsusi proqramla təchiz edilmiş əsas və arxa komanda məntəqələri, artilleriya qruplaşması, təminedici bölmələr, bölük komandirləri və tabor qərargahları siniflərində keçirilən ikitərəfli təlimlərdə də məqsədə nail olunub. Naxçıvan Qarnizonu Qoşunlarının uzlaşdırılmış kompüter dəstəkli komanda-qərargah təliminin nəticələri hakimlər qrupu tərəfindən dəyərləndirilib, toplanan məlumatlar və əldə olunmuş nəticələr təhlil edilib.

Qarnizonda yerləşən birləşmə və hissələrin xidməti sənədləri və tədris üçün əyani vəsaitlər hərbi mətbəədə hazırlanır. Bu günə qədər birləşmə və hissələr üçün 10 mindən artıq xidməti istifadə üçün kitab və jurnal hazırlanıb. Təlim-Tədris Mərkəzinin zəngin kitabxanası vardır. Bildirilib ki, hazırda kitabxanada 18 min müxtəlif ədəbiyyat şəxsi heyətin istifadəsinə verilib.

Ali Məclisin sədri nəzəri dərslərin real ərazi maketləri üzərində keçirilməsi, uzlaşmış təlim və məşğələlərin nəticələrinin qarşılıqlı təhlil və müzakirə olunması barədə tapşırıqlar verib.

Sonra "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı" üzrə görülən işlərin nəticələrinə həsr olunmuş müşavirə keçirilib.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib ki, "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı"na əsasən birinci tədris rübündə əsas səylər motoatıcı, tank, artilleriya, xüsusi təyinatlı və hava hücumundan müdafiə bölmələrinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə, eləcə də hərbi qulluqçuların praktiki vərdişlərinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərə yönəldilib. Təlim və məşğələlərdə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin hərbi qulluqçuları ilə yanaşı, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının hərbi qulluqçuları da iştirak ediblər. 2019-cu ilin birinci rübündə 8-i ərazidə, 8-i isə kompüter dəstəkli olmaqla 16 briqada komanda-qərargah təlimi, 3 komanda-qərargah səfərbərlik təlimi, 2 qərargah məşqi, idarəetmə məntəqələrinin açılması üzrə komanda-qərargah məşqi, təyyarə və helikopterlərin 50 saatdan artıq təlim-məşq və xüsusi tapşırıq uçuşu keçirilib.

Qeyd olunub ki, tədris rübündə müxtəlif ixtisaslar üzrə 1955 nəfər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlanıb. Hazırda "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nda 309 kursant, "Gizir hazırlığı kursu"nda isə 82 kursant təhsil alır. Rüb ərzində qarnizonun birləşmə, hissə və bölmələrinin cəlb edilməsi ilə müxtəlif ixtisaslar üzrə 20 yarış, 12 müsabiqə keçirilib. Silah və texnikaların təmiri, texniki qulluq, şəxsi heyətin tibbi müayinəsi və



qidalanması da diqqətdə saxlanılıb. Kərəm Mustafayev yaradılan şəraitə və göstərilən dəstəyə görə Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının şəxsi heyəti adından Ali Məclisin sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə Naxçıvanın müdafiə potensialının və hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaranmışdır. Ötən il Əlahiddə Ümumqoşun Ordu tərəfindən həyata keçirilən uğurlu Günnüt əməliyyatı bunu bir daha təsdiq etdi. Ölkəmizin müharibə, muxtar respublikanın isə həm də blokada şəraitində olması və düşmən ölkə ilə sərhəddə yerləşməsi Naxçıvanda digər qoşun növlərinin - "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının yaradılmasını da zərurətə çevirmişdir. Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının bir qarnizonda birləşməsi isə qarşılıqlı döyüş fəaliyyətinin təşkilində mühüm əhəmiyyət kəsb edirdi. Bu məqsədlə "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı"nın təsdiq olunması, keçirilən birgə təlimlər və qarşılıqlı fəaliyyət məmnunluq doğurur.

Ali Məclisin sədri deyib: Naxçıvan Hərbi Qarnizonu Qoşunları üçün müasir Təlim-Tədris Mərkəzinin yaradılması, təlim və məşğələlərin uğurla keçirilməsi muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin davamıdır: Ötən il Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təliminin, bu gün isə kompüter dəstəkli komanda-qərargah təliminin keçirilməsi birgə fəaliyyətin nəticəsidir. Bundan sonra da Uzlaşma Planına uyğun olaraq birgə təlimlər keçirilməli, qarşılıqlı fəaliyyət təmin olunmalıdır.

Qeyd olunub ki, muxtar respublikadakı ordu, birləşmə və hissələr hər il müasir silah və texnikalarla təmin olunur. Bu da mütəxəssis hazırlığını zəruri edir. Ona görə də muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər sırasında kadr hazırlığına xüsusi diqqət yetirilir. Hazırda Əlahiddə Ümumqoşun Orduda zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları hazırlanır. Nəticədə mürəkkəb reaktiv qurğuları və digər döyüş texnikalarını idarə edən şəxsi heyət formalaşıb. Təlim-Tədris Mərkəzində yaradılan şərait bu sahədə işlərin uğurla həyata keçirilməsinə imkan verir.

Ali Məclisin sədri "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı" üzrə tapşırıqların uğurla yerinə yetirildiyinə görə Naxçıvan Hərbi Qarnizonu qoşunlarının şəxsi heyətinə təşəkkür edib.

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri general-leytenant Fazil Ələkbərov "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı"nın xidmətin uğurlu həyata keçirilməsinə və birgə fəaliyyətin təşkilinə mühüm töhfə verdiyini bildirib, yaradılan şəraitə görə Ali Məclisin sədrinə şəxsi heyət adından minnətdarlıq edib.

AZƏRBAYCAN ORDUSU

## Ümummilli lider Heydər ƏLİYEV:

# Naxçıvanski adına lisey mənim üçün bir övladdır

*Müstəqil Azərbaycanın memarı və qurucusu olan ümummilli liderimiz Heydər Əliyev tarixdə dərin iz salmış dahi şəxsiyyətdir. Xalqın yaddaşında əbədi qalan, böyük qətiyyət və iradə sahibi olan Ulu Öndər ən mürəkkəb və ən çətin vəziyyətlərdə əsl düzgün yolu tapmağı bacarırdı. Azərbaycanlı olmağı ilə həmişə fəxr edib öyünən ümummilli liderimiz Heydər Əliyev bütün şərəfli ömrünü xalqının rifahına, Azərbaycanı qurub yaratmağa və müstəqil ölkəsini dünyada tanıtmağa sərf etdi. Bütün güc və qüvvəsini dövlətimizin quruculuğuna yönəltdi. Son nəticədə istəyinə, amalına nail oldu, güclü, qüdrətli və yenilməz bir dövlət yaratdı, tarixin səhifələrində heç vaxt pozulmayan dərin izlər qoydu. Buna görə də ulu öndər Heydər Əliyev xalqın böyük ehtiramını, hörmətini və sevgisini qazandı. Müasir Azərbaycan tarixinin ən parlaq, ən işıqlı və ən möhtəşəm səhifələri ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.*



Zaman-zaman xalqın böyük sevgisini qazanan ulu öndər Heydər Əliyev hələ sovet dövründə peşəkar dövlət xadimi, qeyri-adi siyasətçi olduğunu sübut etmişdi. Bu nadir şəxsiyyətin adı Azərbaycan tarixinin səhifələrinə böyük hərflərlə yazılıb. Ötən əsrin 70-ci illərindən Azərbaycana rəhbərlik edən ümummilli liderimiz Heydər Əliyevin yüksək təşəbbüskarlığı, müdrik siyasəti, səy və bacarığı sayəsində ölkəmiz, sözün həqiqi mənasında, intibah dövrünü yaşamışdır. Həmin illər Azərbaycanın yüksəliş dövrü idi. Bu o vaxtlar idi ki, Azərbaycan Respublikası keçmiş Sovetlər Birliyinin tərkibində birbaşa Moskvadan - Kremldən idarə olunurdu. Lakin Heydər Əliyev ölkəmizin inkişafı naminə böyük çətinliklərlə də olsa, mərkəzin diqqətini, qayğısını məmləkətimizə yönəltdi. Bu gün adi hal kimi qiymətləndirilən hər bir addımı o illərdə atmaq sarsılmaz iradə, qətiyyət, cəsarət və hər şeydən öncə böyük risk tələb edirdi. Böyük tarixi şəxsiyyət kimi ümummilli liderimiz Heydər Əliyev zamanında bu işi çox yaxşı bacardı.

Hələ Sovet hökumətinin ən sərt dövründə Heydər Əliyev Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratdı. Bu gün gənclərin təhsil aldıqları xüsusi təyinatlı təhsil müəssisəsinin əsası 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində qoyulmuşdur. Bu tədris ocağı fəaliyyətdə olduğu müddətdə burada ordu üçün yüzlərlə, minlərlə peşəkar hərbçi kadrlar hazırlanmışdır. Sovet rejiminin hökmran olduğu bir vaxtda milli zabit kadrların hazırlanmasına yönəldilmiş təşəbbüs böyük hünər tələb edirdi. Heç kim kommunist ideologiyasının hakim olduğu bir məmləkətdə bu məsuliyyəti öhdəsinə götürməyə risk etməzdi. Bu təşəbbüs yalnız xalqının gələcəyini düşünən, xalqına, millətinə qəlbən bağlı olan, həyatını Vətəninin çiçəklənməsinə həsr edə bilən Heydər Əliyev kimi dahi şəxsiyyətlər tərəfindən edilə bilərdi.

Azərbaycanda hakimiyyətə gəldiyi ilk illərdən ulu öndər Heydər Əliyevi düşündürən əsas məqsəd və amallardan biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi məsələsi olmuşdur. Bildiyimiz kimi, bütün fəaliyyəti dövründə Heydər Əliyev öz taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşmış və onların xidmətinə yüksək dəyər vermişdir. Zamanın nəbzini tutan Ulu Öndər artıq hiss edirdi ki, azərbaycanlı gəncləri ali hərbi məktəblərə hazırlamaq məqsədilə respublikada hərbi təyinatlı orta internat məktəbini yaratmağın zamanı çatıb. Belə bir məktəbin yaradılması Azərbaycanın gələcəyi üçün çox mühüm hadisə olacaqdı. Burada azərbaycanlı gənclər həm rus dilini mükəmməl öyrənə, həm də ibtidai hərbi biliklərə yiyələnə və asanlıqla istədikləri ali hərbi məktəblərə daxil ola bilərdilər. Ulu öndər Heydər Əliyev həmin məktəbin necə olacağını, fəaliyyətinin xüsusiyyətləri barədə də fikirlərini bildirmiş və tez bir zamanda bu istiqamətdə işlərin görülməsi üçün Maarif nazirinə tapşırıqlarını da vermişdir. Bununla da Moskvanın buna müdaxilə etməməsi üçün təşəbbüsün Maarif Nazirliyindən gəlməsinə şərait yaratmışdır.

Ulu öndər Heydər Əliyev Azərbaycan milli diviziyasının ilk komandiri olmuş general Cəmşid Naxçıvanskinin anadan olmasının 75 illiyi ilə əlaqədar Respublika Hərbi Komissarlığı tərəfindən Mərkəzi Komitəyə müraciət etməyi tapşırmışdı. Sonra həmin müraciətə əsasən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarının verilməsinə nail olmuşdur. Qərara əsasən "Partiya, sovet, komsomol təşkilatlarının və respublika hərbi komissarlıqlarının gənclərin ordu sıralarında xidmətə hazırlanması və hərbi məktəblərin komplektləşdirilməsi haqqında" qərarın icrası ilə əlaqədar Azərbaycan Kommunist Partiyası Mərkəzi Bürosu Bakı şəhəri, Zığ qəsəbəsi 2 nömrəli 8 illik internat məktəbinin bazasında hərbi təyinatlı orta internat məktəbinin yaradılması və bu təhsil ocağına görkəmli hərbi xadim general Cəmşid Naxçıvanskinin adının verilməsi barədə qərar qəbul etmişdir.

Nəticədə, 1971-ci ildə məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü, gərgin zəhməti və uzaqgörənliyi sayəsində, böyük əziyyətlər bahasına tarixi addım atıldı. Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Bu hərbi məktəbdə azərbaycanlı gənclər təhsil almağa başladılar. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarının hazırlanmasında və o dövrdə ali hərbi məktəbləri bitirənlərin müstəqillik illərində Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna dərəcədə rolu vardır. Hazırda ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır.

Bu gün Silahlı Qüvvələrimiz üçün zabitlər hazırlayan Cəmşid Naxçıvanski adına Hərbi Liseydə işlər həmişəki ahəngi ilə davam edir. Təhsil ocağında xidmət edən zabitlər, kursantlara dərs deyən müəllimlər fədakarcasına çalışırlar. Hər addımda hiss olunur ki, bu insanlar həm təcrübəli, həm də vətənpərvər və cəsurdurlar. Bu gün kursantlar Hərbi liseydə hərbi biliklərlə yanaşı, dilimizi, ədəbiyyatımızı və tariximizi də həvəslə öyrənirlər. Öyrəndikcə də püxtələşirlər, püxtələşdikcə də mənəviyyatları zənginləşir. Bu zənginlik onları uğurlara aparır. Kursantlar bu gün öyrəndiklərini sabah işlərində, xidmətlərində tətbiq edəcək, uğur qazanacaqlar. Hərbi liseydə hamı kursantlara dünənki qəhrəmanlarımızın, igidlərimizin bugünkü və sabahkı davamçıları kimi baxır. Doğrudan da, onlar çox şərəfli bir yolun yorulmayan yolçularıdırlar. Hələ ki, kursantlar uzun və şərəfli bir yolun başlanğıcındadırlar. Onlar yollarına sevinc hissi ilə, həvəslə davam edirlər.

Bir anlıq dönüb geriyə - təhsil ocağının dünəninə boylananda görürsən ki, indiyə qədər Hərbi liseyi yüzlərlə, minlərlə yeniyetmə bitirərək müxtəlif ali hərbi məktəblərə, oradan da ordu sıralarına üz tutublar. Onların bəziləri general rütbəsinədək yüksələrək hazırda ordumuzun ən mühüm postlarında xidmət edirlər. Bir zamanlar Hərbi liseyin partaları arxasında əyləşən kursantlar, sonralar Qarabağ uğrunda gedən döyüşlərdə də vuruşdular. Yurdumuzun müdafiəsində böyük hünər və rəşadət göstərdilər. Təəssüflər ki, onların bəziləri qanlı savaşlarda, qeyri-bərabər döyüşlərdə şəhid oldular. Bu gün kursantlar onların qəhrəmanlığı ilə fəxr edib öyünürlər. 2016-cı ilin Aprel döyüşlərində də C.Naxçıvanski adına Hərbi Liseyin məzunları böyük hünər və rəşadət göstərdilər. Bu şanlı döyüşlərdə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına yüksələn üç zabitdən ikisinin bu ibtidai təhsil ocağının yetirməsi olması çox qürurvericidir.

Kursantlar üçün bəlkə də ən sevindirici anlar hərbi marşın sədaları altında sıra meydanından nizami addımlarla keçmələridir. Həmin dəqiqələrdə onların üzündən yağan xoşbəxtliyi görmək özü də bir bəxtəvərlikdir. O anlarda kursantların ürəklərində qövr edən sevincləri dünyaya sığmırdı. Həmişə belə olur, insan arzusuna çatanda, qəlbini xoş hisslərə təslim edir. Duyğular cuşə gəlir, qəlb coşur, könül xoşlanır. Həmin anlarda kursantlar addımlarını daha da böyük inamla atırlar. Onların baxışları daha ötkəm olur. Ayaqlarının səsindən, hənirtilərindən sıra meydanının da üzü gülür. Günəş də al şəfəqləri ilə kursantları salamlayaraq onların həyat yollarını nura boyayır. Bütün bunlar kursantların sabahkı gözəl həyata olan inamlarını daha da artırır.

Həm Milli qəhrəmanlarımızın xatirəsinə həsr olunmuş idman turnirlərində, həm müxtəlif təyinatlı tədbirlərdə, həm də viktorina və müsabiqələrdə kursantlar daha mübariz olurlar. Onlar yarışlarda cəld və çevik hərəkətləri ilə, bilikləri ilə birinci olmağa can atırlar. Daim ovqatları yüksək olan kursantlardan qələbə qoxusu gəlir. Hərbi liseyin rəhbərliyinin təşkilatçılığı ilə tez-tez keçirilən yarışlar, müsabiqələr kursantlara mübarizlik, cəsurluq kimi nəcib hisslər aşılayır. Yarışdan-yarışa onlar daha da təkmilləşirlər. Gələcək xidmətlərində qazanacaqları böyük uğurların ilk kərpicləri burada qoyulur. Kursantların bir vətəndaş, bir şəxsiyyət, bir hərbçi kimi böyüməsi üçün yenicə əsaslı təmirdən çıxmış Hərbi liseydə hərtərəfli şərait yaradılıb.

Tam inamla deyə bilərik ki, C.Naxçıvanski adına Hərbi Liseydə Mübarizlərin, Çingizlərin, Albertlərin, Muradların, Vəzirlərin və başqa qəhrəmanlarımızın davamçıları böyüyürlər. Hazırda burada ibtidai hərbi təhsil alan "balaca generallar" sabahkı döyüşlərdə qəhrəmanlıqları ilə tarix yazacaqlar.

Kursantlar Şəhidlər və Fəxri xiyabanlara gedir, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun və başqa şəhidlərimizin məzarlarını ziyarət edirlər. Bu anlarda onların üzündən, gözündən qürur və iftixar süzülür. Bundan əlavə, kursantlar silah sərgilərinə də gedirlər. Onlar biliklərini təkmilləşdirmək, həyat təcrübələrini artırmaq üçün daim öz üzərlərində çalışırlar. Təbiidir ki, gələcəyimizin zabitləri olacaq belə hazırlıqlı, belə vətənpərvər kursantları qarşıda yalnız uğurlar gözləyir.

Yaradıcısı və qurucusu ümummilli lider Heydər Əliyev olan C.Naxçıvanski adına Hərbi Lisey hələ bundan sonra da hərbçi olmaq arzusu ilə yaşayan yüzlərlə, minlərlə gənci ağuşuna alacaq. Bu təhsil ocağında illər, əsrlər boyu ordumuz üçün savadlı, bacarıqlı və vətənpərvər kadrlar hazırlanacaqdır.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru Hərbi Akademiyada olub



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru general-leytenant Yan Broeks öncə Şəhidlər xiyabanını ziyarət edərək Vətənimizin azadlığı, müstəqilliyi uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsini hörmət və ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri qoyub.

Sonra Silahlı Qüvvələrin Hərbi Akademiyasında olan fəxri qonaq bir sıra görüşlər keçirib. General-leytenant Y.Broeks şəxsi heyət qarşısında NATO-nun layihə və proqramları, NATO-Azərbaycan əməkdaşlığının istiqamətləri mövzusunda çıxış edib və görüş iştirakçılarının suallarını cavablandırıb.

Azərbaycan-NATO əlaqələrini yüksək qiymətləndirən NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru, sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəni, Alyansın tədbirlərində Azərbaycan hərbçilərinin fəal iştirakını və hərbi qulluqçularımızın hazırlığını xüsusi vurğulayıb.

# Azərbaycan-Ermənistan dövlət sərhədində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 17-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Joviç aparıblar.

# Azərbaycan Ali Hərbi Məktəbinin rəisi Türkiyədə bir sıra görüşlərdə iştirak edib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələri arasında keçirilən dostluq idman yarışları ilə əlaqədar Türkiyədə səfərdə olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Fizuli Salahov bu ölkənin Baş Qərargahının rəisi ordu generalı Yaşar Gülər, Quru Qoşunlarının komandanı ordu generalı Ümit Dündar və Türkiyə Quru Qoşunları Hərbi Məktəbinin rəisi general İsmayıl Güzəllər ilə görüşüb.

Görüşlər zamanı tərəflər Azərbaycan ilə Türkiyə arasında hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri, həmçinin hər iki ölkənin hərbi təhsil müəssisələrinin müəllim-professor heyətinin qarşılıqlı səfərlərinin təşkili məsələləri barədə fikir mübadiləsi aparıblar.

# "Əsgərlər tapşırıqların öhdəsindən bacarıqla gəlirlər"

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Məhəmmədəli Məmmədovun nəzarəti altında keçirilən sıra hazırlığı məşğələsinin şahidi olduq. Sıra hazırlığının fənn və üsullarını öyrənən əsgərlərin ayaq səsləri hər kəsin diqqətini özündə cəmləyirdi. Gənclərin ayağını eyni anda yerə vurmasından yaranan səs dalğası, verilən komandaları cəld yerinə yetirərək nizamlı şəkildə sağa-sola, geriyə dönmələri xoş ovqat aşılayırdı. Düşünürsən, belə vətənpərvər, igid oğulların qarşısında heç bir düşmən tab gətirə bilməz, tezliklə qələbə bizim olacaq.

M.Məmmədovun bacarıqlı və savadlı olduğu, seçdiyi peşəyə ürəkdən bağlılığı məşğələnin gedişatını izlədikcə hiss olunurdu. Müşahidələr onu göstərirdi ki, məşğələlər səmərəli keçir. Mövcud əyani vasitələrdən, tədris imkanlarından yetərincə bəhrələnən məşğələ rəhbəri dərs prosesində əsgərlərə hərbi bilikləri hərtərəfli öyrətməyə çalışırdı. Əsas məqsəd şəxsi heyətə döyüş vərdişlərini aşılamaq və onlarda ruh yüksəkliyi yaratmaqdır. Məşğələ rəhbəri bildirdi ki, nizam-intizam sıradan başlanır. "Hərb peşəsinin ən mühüm və vacib şərtlərindən biri nizam-intizamdır ki, bu da sıradan başlanır. Hər gün məşğələyə başlamazdan əvvəl bu sıralarda Mübarizlərin, Çingizlərin, Raquflların, Samidlərin və onlar kimi Vətən uğrunda canlarından keçən qəhrəman oğullarımızın dayandıqlarından və sıranın müqəddəsliyindən danışıram. Sıra hazırlığı məşğələsində şəxsi heyətə hərbi qulluqçuların silahsız və silahla sıra hərəkətləri və yerişi, bölmə və hissələrin piyada və nəqliyyat vasitələrində sıraları, əsgəri salamlaşma qaydaları, sıra baxışının keçirilməsi, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borcları, sıra hazırlığına olan tələbləri, habelə yerdəyişmə qaydaları öyrədilir. Bugünkü məşğələmizdə əsgəri salamlaşma, rəisə yaxınlaşma, hərəkətdə dönmələr və digər sıra elementlərini öyrədirəm. Sırada dayanan hər kəs verilən tapşırıqların öhdəsindən uğurla gəlir". Söhbət əsnasında öyrənirəm ki, həmsöhbətim dörd il idmanın boks növü üzrə məşğul olub. Bir neçə uğurlara imza atıb.



- Əsgəri xidmət keçmək, torpaqlarımızı qorumaq bizim övladlıq borcumuzdur, - deyə Gündüz Niftiyev söhbətə başladı. - Vətənin keşiyində dayanmaq kimi müqəddəs vəzifə tapşırılıb bizə. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün keçirilən məşğələlərdə fəal iştirak edir, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetirir, peşəkar komandirlərimizin nəzarəti altında hərbi sirlərə dərindən yiyələnir və hər zaman intizamlı əsgər olmağa çalışırıq. Döyüş, atəş, fiziki və sıra hazırlıqlarını, silahlardan istifadə etməyi, döyüş bacarıqlarını uğurla öyrənirik. Keçirilən dərslər nəticəsində bilik və bacarıqlarımız yüksək səviyyədədir. İstənilən an Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı düşmən tapdağından azad etməyə hazırıq.

Əsgər Nicat Məmmədov cəbhə xəttində xidmət etdiyindən qürur duyduğunu bildirdi. "Əsgər olmaq hər birimizin uşaqlıq arzusudur. Hərbi formanı geyinib, qürur mənbəyimiz olan ordumuzun sıralarında dayanmaqdan böyük sevinc ola bilməz mənim üçün. Günlər keçdikcə təcrübəli əsgər kimi formalaşır, yeni döyüş vərdişlərinə yiyələnirik. Bu gün sıra meydanında öyrədilən nizam-intizama xidmətim boyu əməl edəcək, ordumuzun adına layiqli əsgər olub, valideynlərimin yanına başıuca qayıdacam".

Əsgər Ələkbər İbrahimov Vətən keşikçisi olmasından fəxarət hissi keçirdiyini dedi: "Hərbi xidmətə gəldiyim ilk gündən çalışmışam ki, hərbi bilik və bacarıqları yüksək səviyyədə öyrənim. Sağ olsun həm zabitlər, həm də çavuşlar ki, bizə hərbi bilikləri öyrədirlər. Dərslərdə öyrəndiyimiz biliklər gələcək döyüşlərdə qalib gəlmək üçün köməyimiz olacaq".

Əsgərlərdən Yaqub Abdullazadə, Zəka Əliyev, Xəyal Kərimli və başqaları da söhbət zamanı öz vəzifələrinin öhdəsindən layiqincə gələcəklərini, Vətənə sədaqətlə xidmət etdiklərini bildirdilər.

Əsgərlərin hər birinin ürəklərində sonsuz Vətən sevgisi olduğunu hiss etdim. Onların hərbi xidmətə tək məqsədlə - torpaqlarımızı işğaldan azad etmək üçün gəldiyinin şahidi oldum. Hər biri xidməti ilə sübut etdi ki, Azərbaycan əsgəri vətənpərvər, qorxmaz, cəsurdur. Vətən uğrunda hər an döyüşə atılmağa hazırdır.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 aprel 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Acarlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ankara şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan kursantları arasında idman yarışları keçirildi

*Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin görüşünün protokoluna əsasən, aprelin 16-da Ankara şəhərində hər üç ölkənin hərbi məktəbləri arasında dostluq idman yarışlarına start verildi. Yarışlarda Azərbaycanı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursant və zabit heyəti təmsil edirdi.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Türkiyə Quru Qoşunları Hərbi Komandanlığının ev sahibliyi ilə keçirilən yarış 3 gün davam etdi. Yarışlara atletika, futbol, voleybol və digər idman növləri daxildir. Azərbaycan yarışa 36 kursant, 3 zabit və 5 idman müəllimi olmaqla, 44 nəfərlik heyətlə qatıldı.

Əvvəlcə Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürkün heykəli önünə çələng qoyuldu, xatirəsinə ehtiram göstərildi.

Sonra Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət himnləri səsləndirildi.

Açılış mərasimində çıxış edən Türkiyə Quru Qoşunları Hərbi Məktəbinin rəisi general İsmayıl Güzəllər təşkil olunan yarışın əhəmiyyətini yüksək dəyərləndirərək bildirdi ki, qaliblərin kimliyindən asılı olmayaraq bütün iştirakçılar dost olacaqlar.

# NATO-nun hərbi-dəniz qrupu Baltik dənizinə daxil olub

NATO-nun hərbi-dəniz qrupu Baltik dənizinə daxil olub. AZƏRTAC "RİA Novosti" agentliyinə istinadla xəbər verir ki, bu məlumatı Rusiya Milli Müdafiə İdarəetmə Mərkəzi yayıb. Bildirilir ki, Birləşmiş Ştatlar Hərbi Dəniz Qüvvələrinin "Qreyvli" esminesinin başçılıq etdiyi bu qrupa Polşa, Türkiyə və İspaniyanın hərbi gəmiləri daxildir. Məlumatda qeyd edilir ki, rusiyalı mütəxəssislər həmkarlarının marşrutunu diqqətlə izləyirlər. Hər hansı gözlənilməz vəziyyətə hazır olmaq və operativ reaksiya vermək üçün qərargah kompleks təlimləri keçirilir.

Rusiya tərəfinin məlumatında qeyd olunub ki, NATO-nun gəmilərinin Baltik dənizinə daxil olması ilə əlaqədar gəmilərin zərbəçi qruplarının, "Bastion" və "Bal" sahil raket komplekslərinin və dəniz aviasiyası təyyarələrinin növbətçiliyi təşkil olunub.

# Məhkəmə nümayəndələri hərbi hissələrdə görüşlər keçiriblər

*Müdafiə Nazirliyinin 2019-cu il üçün tədbirlər planına əsasən, Füzuli Hərbi Məhkəməsi və Şirvan Apellyasiya Məhkəməsinin nümayəndələri cəbhəboyu zonada yerləşən hərbi hissələrdə görüşlər keçiriblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşlərdə qarşılıqlı münasibətlərin nizamnamənin tələblərinə uyğun qurulması, cinayətkarlığa qarşı mübarizədə məhkəmənin hökm və qərarlarının rolunun artırılması, hərbi qulluqçular tərəfindən hərbi xidmət əleyhinə olan və digər cinayətlərin törədilməsinin qarşısının alınması istiqamətində profilaktik tədbirlərin görülməsi barədə şəxsi heyətlə söhbətlər aparılıb.

Sonda şəxsi heyəti maraqlandıran sualları cavablandıran qonaqlar bu cür tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

# ATƏT-in baş katibi və Rusiyanın xarici işlər naziri Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını müzakirə edəcəklər

Aprelin 24-də ATƏT-in baş katibi Tomas Qreminger və Rusiyanın xarici işlər naziri Sergey Lavrov arasında keçiriləcək görüşdə Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsi müzakirə ediləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə aprelin 18-də keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova məlumat verib.

Tərəflərin görüşü aprelin sonunda beynəlxalq təhlükəsizliyə dair VIII Moskva Konfransı çərçivəsində keçiriləcək. Rusiya XİN rəsmisinin sözlərinə görə, görüşdə Dağlıq Qarabağ münaqişəsi ilə yanaşı, digər beynəlxalq məsələlər, o cümlədən Avropanın təhlükəsizliyi, Dnestryanı bölgədə, Balkan ölkələrində və Mərkəzi Asiyada vəziyyət ətrafında fikir mübadiləsi aparılacaq.

# "Vətənə xidmətinə görə sağ ol"

*Müdafiə Nazirliyinin "N" hərbi hissəsində xidmət müddəti başa çatmış bir qrup hərbi qulluqçunun ehtiyata buraxılması ilə əlaqədar "Vətənə xidmətinə görə sağ ol" adlı təntənəli yolasalma mərasimi keçirilib.*

Mərasim ulu öndər Heydər Əliyevin və Vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin ifası və Dövlət bayrağının meydana gətirilməsi ilə başlayıb.

Sonra xidmət müddəti başa çatmış əsgərlər tərəfindən döyüş növbətçiliyini qəbul edən əsgər yoldaşlarına silahların, zirehli jiletlərin və dəbilqələrin rəmzi qaydada təqdimetmə mərasimi keçirilib.

Tədbirdə hərbi hissənin komandanlığı tərəfindən ehtiyata buraxılan şəxsi heyətə təbriklər çatdırılıb, döyüş növbətçiliyini qəbul edən hərbi qulluqçulara tövsiyələr verilib və onlara gələcək xidmətlərində uğurlar, qələbə sevinci arzulanıb.

Yolasalma mərasimi xidmətdə fərqlənmiş və döyüş hazırlığında yüksək nailiyyətlər əldə etmiş hərbi qulluqçuların komandanlığın əmri ilə mükafatlandırılması və onlara qiymətli hədiyyələrin təqdim edilməsi ilə sona çatıb.

* * *

"N" hərbi hissəsində Müdafiə nazirinin müvafiq qərarının tələblərinə uyğun olaraq, "Döyüş növbətçiliyinə daxilolma mərasimi" keçirilib. Tədbirdə general-mayor Mayis Bərxudarov, polkovnik Elşad Əbilov, Yeni Azərbaycan Partiyasının Ağcabədi rayon təşkilatının nümayəndəsi Mehman Hüseynov, Qarabağ müharibəsinin veteranları, Ağcabədi rayon Minaxorlu kəndinin axundu Hacı Sadiq, əsgər valideynləri, rayon ictimaiyyəti və digər fəxri qonaqlar iştirak ediblər. Əvvəlcə ulu öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni oxunub.

Meydana Dövlət bayrağının gətirilməsi ilə başlanan tədbirdə çıxış edən general-mayor Mayis Bərxudarov döyüş növbətçiliyinə daxil olan şəxsi heyətə öz tapşırıq və tövsiyələrini verərək, gələcək xidmətlərində uğurlar və qələbə sevinci arzulayıb: "Əsası əbədiyaşar komandan Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm Prezidentin ordu quruculuğunda apardığı uğurlu islahatların, diqqət və qayğısının nəticəsi olaraq hal-hazırda ordumuzun maddi-texniki bazası gücləndirilib, bütün hərbi hissələrimiz müasir silah və texnika ilə təmin olunub, yeni hərbi hissələrdə və şəhərciklərdə müasir tələblərə uyğun şərait yaradılıb. Əziz qonaqlar, torpaqlarımızın etibarlı müdafiəsinin təmin edilməsi istiqamətində yüksək nailiyyətlər əldə edildiyinin hər biriniz şahidisiniz. Ordumuzun gücü və qüdrəti əminliklə deməyə əsas verir ki, Ali Baş Komandanın döyüş əmri ilə Aprel və Günnüt qələbələrimizi təkrarlamağa hər an hazır və qadirik. Əziz əsgərlər, sizlərə şərəfli xidmətinizdə uğurlar, döyüş növbətçiliyində ayıq-sayıq olmağı, Vətənimizin keşiyində inamla dayanmağı arzulayıram."



Çıxış edən digər qonaqlar da dövlət tərəfindən ordumuza yüksək diqqət və qayğı göstərildiyini, həmçinin xalqın daim ordusunun yanında olduğunu vurğulayıblar. Qeyd ediblər ki, ordu xalqın güvənc yeri, qürur mənbəyidir. Həmçinin cəmiyyət və ordu arasında sıx əlaqələrin mövcudluğundan, yeniyetmə və gənclərdə hərbi vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə təbliğindən danışaraq, döyüş növbətçiliyinə yola salınan igidlərə xeyir-dualarını çatdırıblar.

Rayon mədəniyyət evinin və dram teatrının kollektivinin iştirakı ilə davam edən tədbirin sonunda qurbanlar kəsilib və şəxsi heyət təntənəli surətdə döyüş mövqelərinə yola salınıb.

**"Azərbaycan Ordusu"**



Vətənpərvərlik

# "And içirik"

## və yaxud "Ağ ümid"in inam haləsi

Şeirə, şeiriyyətə könül verəli şeirli gecələri, şeirli görüşləri ruhun ziyarəti bilmişəm. Belə ziyarətlər Vətən ünvanlıdırsa, daha duyğusal olur...

Azərbaycan Dövlət Pedaqoji Universitetində Azərbaycan Yazıçılar Birliyi vətənpərvərlik komissiyasının sədri Şahin Musaoğlu ilə tələbələrin görüşü Vətən sevgisinin işığında izlənildi. Vətənsevərlik tədbiriydi, vətənsevərlərin əhatəsində vətənpərvərlik şeirlərini, bu biçim şeirlərə bəstələnmiş mahnıları dinləməyi hamı həmişə ruhun qazancı bilib...

"Ağ ümid" mahnısını səngərlərdə də dinləmişəm, şeirli tədbirlərdə də. "Ağ ümid" şeirlər kitabını oxuya-oxuya düşünmüşəm, düşünə-düşünə oxumuşam. Bədii dəyər anlamında hər iki gözəl əsərin mahiyyətini ümidin son nəfəsəcən yaşarılığına zəmanət bilmişəm. Hər iki əsər həmişə mənə həm könül xoşluğu verib, həm də şeir üzünə açıq olan könlümü bir mətləb qədərincə təlləndirib. Hər dəfə də qətiyyətlə əmin olmuşam ki, hər iki əsərin mənəvi səmasının üfüqlərində bir inam haləsi var və bu halə də milli-mənəvi ruhun zərrəsidi...

"Ağ ümid" mahnısını Şahin Musaoğlu yazıb...

"Ağ ümid" şeirlər kitabının müəllifi Şahin Musaoğludur...

Musa oğlu Şahin həkimdi...

Həkim Musa oğlu Şahin şairdi...

Həkim, şair Musa oğlu Şahin bəstəkardı...

Həkim Musa oğlu Şahini şairliyi, bəstəkarlığı Şahin Musaoğlu edib. Belə ad-ata adı yerdəyişməsi şeirimizin, musiqi dünyamızın qazancıdı. Şahin Musaoğlu belə tanınıb, belə tanınır, belə sevilib, belə sevilir; qibtəediləsi tanınmadı, qibtəediləsi sevilmədi...

Bir vaxtlar özümə ünvanladığım bir fikri böyük qürurla həkim, şair, bəstəkar Şahin Musa oğlu Əbilova da şamil edirəm: Şahinin vətəndaşlığı həkimliyindən də, şairliyindən də, bəstəkarlığından da yüksəkdə dayanır. Şahin qədirbilən, layiqli vətəndaşdı; necə vətəndaş olması həkimliyiylə otuz il boyunca təsdiqlənmişdi, illər öncə şeirləriylə - şairliyiylə, şeirləriylə dabanbasaraq musiqi dünyasıyla - bəstəkarlığıyla təsdiqləndi. Şahin Musaoğlunun ikili təzahürlü istedadını (poeziya, musiqi) müəyyənləşdirən yaradıcılığı bəstəboy deyil. Görünür, tanınır, sevilir. Bu dəyərli yaradıcılıq görünə-görünə, tanına-tanına, sevilə-sevilə "Çağırır Vətən" deyir, "And içirik" deyir, "Bay yurdum" deyir, ... Azərbaycan Dövlət Pedaqoji Universitetində bu səmimi görüşü riyaziyyat fakültəsinin tələbəsi Sevdanın rəfiqələrinə dediklərinin vasitəçiliyi ilə belə görünmənin, belə tanınmanın, bu sevilmənin təzahürü bildim: 2016-cı ilin Aprel döyüşləri təsdiqlədi ki, əsgərlərimiz Şahin Musaoğlunun timsalında Vətənin "İgid əsgər, möhkəm dayan" tövsiyə-tapşırığına böyük məsuliyyətlə, sevgilərlə əməl edir...

Tələbə Sevdaya qibtəediləsi vətənpərvərliyinə görə həm öz adımdan, həm də təmsil etdiyim kollektivin adından təşəkkür etdim. Macal olmadı ki, deyəm: Bu qəbil mahnılara müharibə illərinin mahnıları deyə bilərik (və deyirik). Bu qəbil mahnılar dinləyənə deyir ki, torpaqlarımızda müharibə gedir, könlün öz yerində, ömrünü də bu ovqata köklə. Bu qəbil mahnılar dinləyəni əsgərləşdirir. "İgid əsgər, möhkəm dayan" mahnısı 90-cı illərdə nəçələrini döyüşlərə aparmışdı. İlk ifaçısı Şəmistan Əlizamanlı olan bu mahnı Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri gizir Elçin Məmmədovla gizir Leyla Qəhrəmanovanın ifasında da duyğuları titrədir.

Bu biçim könüləyatımlı qələbəliyi vətənpərvərlik duyğularına ehtiram yaradıb. Şair olaraq, bəstəkar olaraq Şahin Musaoğlunun bu mövzuya (Vətən, vətənpərvərlik) ehtiramı, sabahın pedaqoqları - müəllimləri olacaq oxucu-dinləyici tələbələrin belə yaradıcılığa maraq biçimli ehtiramı...

Universitetin əməkdaşı Səadət Abdullayeva Şahin Musaoğlunu tələbələrə təqdim etdi.





Filologiya fakültəsinin dekanı Mahirə Hüseynova vətənpərvərlik şeirlərinin, mahnılarının gənclərin, bu anlamda tələbələrin dünyaduyumunun formalaşmasına təsirindən söz açdı, bu baxımdan Şahin Musaoğlunun yaradıcılığını yüksək dəyərləndirdi. Belə tədbirlərdə nədən danışılırsa danışılsın, ruhun diliylə danışılmalıdı, - dedi, oxuduğu şeir fikrinin poetik təsdiqi kimi dinlənildi...

Şahin Musaoğlunun lirik şeirləri lirizmiylə necə səciyyəvidirsə, vətənpərvərlik şeirləri həmin səviyyədə düşündürücüdü. Bu qəbil şeirlərin bətnində melodik çalarlar var və bu səbəbdən Şahin öz musiqi yozumuyla o çalarlara bitkin melodik biçim verib. Şahin Musaoğlunun "Cənab leytenant"ı müharibə görüb, döyüşüb, şəhid olub. Şair Şahin Musaoğlu obraz olaraq bu ömrü poeziyaya böyük ehtiramlarla gətirib. Bu ehtiram şəhid leytenantın timsalında şəhidlərə, şəhidliyə ehtiramdı. Şair şəhid leytenantın ölməz ruhuna müraciətlə "Hay ver mənə!" deyir. Ürəyinlə dinləsən əmin olacaqsan ki, bu uca ruh şairin timsalında Vətənimizin təmənnasına hay verir. "Leytenantların sırasında mən də varam...", - deyir. Bu səs ölməzliyin, bəşəriliyin, döyüş əzminin, qələbə ruhunun səsidi. Bu duyum poeziyanın aşıladıqlarıdı. Şahin Musaoğlu şeirə mahnı bəstələyib. Bu mövzuda olmasaydı, ona könüləyatımlı mahnı deyərdim. Musiqi ədəbi mətni incəliklə tamamlayır. Şeiri oxuyanda, dinləyəndə hansı duyğuları yaşayırsansa, mahnının sözsüz musiqisini dinləyəndə də həmin ovqatı yaşayırsan.

Gizir Elçin Məmmədovla gizir Leyla Qəhrəmanova bu duyğusal bəstəni olduqca duyğusallıqla ifa etdi. Nəqərat - "Hay ver mənə, cənab leytenant" iştirakçıların sayı qədər, təkrarlanırdı. Bunu şeirin, bəstənin, ifanın vəhdətinin qüdrəti bildim...

Xalq şairi Vaqif Səmədoğlunun şeirlər kitablarından biri "Mən burdayam, İlahi"dir. Yəni məni gör, məni unutma. Bu iltiması hər duyuma, duyğuya şamil etmək günah, suç deyil. Bu gün burada şeirləri, mahnıları dinləyə-dinləyə düşünürəm: Şahin Musaoğlunun şeirləri, mahnıları bunca duyğusaldırsa, bunca düşündürücüdürsə, yəqin ki, söz-mətləbdən yaranan şeirlər, belə şeirlərdən bəzilərinin boyuna biçilən mahnılar ("Birinci batalyon", "Şahinlər", "Vətən əmanəti", "Bismillah" və b.) da "Siz haradasınızsa, biz oradayıq!", - deyir. O səsi duymaq, hiss etmək, ruhuma köçürmək istəyirsən.

Tələbələr Şahin Musaoğlunun şeirlərini oxuyur. Mənə tanış, mənə doğma, mənə munis xarakteri, Vətənə - ululuğa vurğunluğu, təbiət gözəlliklərinə aludəliyi, dostluğa sədaqəti görürəm misralarda. Bu anlarda mənim narahat, gileyli ruhuma bu misralar qədər can yandıran heç nə yoxdu. Bu halımda anamın ruhunun qayibanə səsini eşidirəm: "Can, ay bala...". Bu səs tələbələrdən birinin oxuduğu şeirin misralarına qarışır:

Təkcə
Atam, anam çatışmır...

Bu şeirlə "Bir vaxtlar mənim də anam varıydı" şeirim arasında hiss edilməsi çətin olmayan bir doğmalıq görürəm. Bu doğmalıq ruhların doğmalığı qədərincə gözəldi. Sən demə, insan yetimlik ağrılarını yaşlaşdıqca daha kövrəkliklə yaşayırmış...

Bayraq...
Kəfən...
Son libas...

Bu ifadələr Şahinin şeirlərində o qədər mahiyyətli verilib ki, az qala onları bir döyüşçü ömrünün sinonimləri bilirsən. Döyüşdən əvvəl bayrağımızı son libas - kəfən əvəzi bağrına basan əsgər hər birimizin ruh qardaşıdı. Şahin belə təqdim edib, düşüncələrimizə belə hopub. Şeir belə məfkurəvi dəyəriylə ölümə ölüm hökmü kimi dinlənildi.

Bu zal mənə neçə onillərin o üzündən tanış zaldı...

Mənə elə gəlir ki, qaynarlıq, coşqu, sözə - şeirə ehtiram bu zalın boyuna biçilib: zalda iştirakçılar əsgərləşib. Döyüş ruhu, qələbə əzmi Şahin Musaoğlunun dəyərli yaradıcılığıyla, ön xətlə Azərbaycan Dövlət Pedaqoji Universiteti arasında mənəvi körpü yaradıb. Və bu məqamda bir tələbənin oxuduğu şeirin son misrası eşidilir: Kimdi gedən mənimlə? Bu ritorik sualın bətnində çırpınan vətənpərvərlik harayı Şahin Musaoğlunun şeirlərinin vasitəçiliyiylə qələbəyə çağırışdı.

Xalq şairi Bəxtiyar Vahabzadənin sözlərinə yazılmış "Bay yurdum" mahnısı min illərin yaşam fəlsəfəsi kimi dinlənildi. Bu mahnı Elçin Məmmədovla Leyla Qəhrəmanovanın ifasında formalaşan varlığını yaşada-yaşada formalaşan bir xalqın - azərbaycanlıların sıyrılı qılıncından düşən işığın əbədiyyən yaşayacağına, yaşadılacağına inam kimi dinlənildi.

Rəşid Faxralının sözlərinə yazılmış "Yollar yordumu səni?" mahnısı lirizmiylə səciyyəvidir. Şahin Musaoğlu diqqətçəkən bu lirizmə könüləyatımlı musiqi yazıb. Mahnı könüllərin sorğusudu, mahnıda can yandırmada var, sevdalının sevdasına görə narahatlığı da. Söz-musiqi - səs vəhdətinin möhtəşəmliyi zalı ləngərləndirir. Hərə xəyalında sevdalısından soruşur: Yollar yordumu səni?..

O qədər duyğusal anlardı ki!

Rəşad İsmayılın ifa etdiyi "Qvardiya marşı" da tələbələrin coşqusuyla qarşılandı...

..."And içirik" mahnısını çox dinləmişəm. Ötən ilin Novruz bayramında ön xətdə yaşadığım duyğuların eynini yaşadım. Bu eyniliyə səbəb Şahin Musaoğlunun da, mənim də ruhumuzun səngərlərdə döyüş növbətçiliyi aparanlarla onlara inananların, onlara güvənənlərin ruhunun eyniliyinə tən olmasıdı, şübhəsiz.

Bu görüş vətənsevərlərlə görüş kimi yadda qalacaq...

Bu görüş təsdiqlədi ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində tələbələr tədris olunmayan vətənpərvərlik elmini də mənimsəyirlər...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Könlüm şeir istəyir*

# Məhəbbət ömürün qu nəğməsidi

*Rəşid Faxralı (Hüseynov) jurnalistdir. Publisistik məqalələri, ön xətdən reportajları ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında mətbu söz olaraq səmərəlidir. Publisistikası kimi şeirləri də oxucularını Qələbəyə kökləyir. Onun şeirləri də səmimidir, düşündürücüdür, duyğuları titrədə bilir. Hər şeir ürəyə, könülə yatmır. Ürəyə, könülə yatan şeirlərilə oxucuların duyğularında "meh əsdirən" şairlər sırasındadır Rəşid Faxralı. Vətən torpağında cücərən, boy atan gülün-çiçəyin baş qoyub yatdığı daşına dönmək niyyəti, murazı şairin vətənsevərliyinin təsdiqidirsə, vətənsevərlik düsturu kimi də qəbul edilə bilərsə, sevgi şeirləri duyğular haləsi kimi görünür.*

**"Azərbaycan Ordusu"**

### Ödənc

Ay Vətən, canıma ruh əvəzisən,
Başına dolanım, başına dönüm.
Sinəndən dikələn gülün-çiçəyin
Baş qoyub yatdığı daşına dönüm.

Dağları bürüyən buludun olum,
Buluddan sıyrılan ümidin olum,
Yad əli çatmayan kilidin olum,
Səni sevənlərin xışına dönüm.

Səndən aldığımı güvənc eləyib,
Duyğumu duyana şətrənc eləyib,
Beş ili, on ili ödənc eləyib
Bir dəfə uşaqlıq yaşına dönüm!..

### Yarpaq ömrü yaşamaram

Bir ağacın budağında
Bir yarpağı yel əsdirir.
Kövrəkləşən bir ömürdən
Ayrı ömrə tələsdirir.

Tər axıdır puçur-puçur,
Uçur - gülür, gülüb uçur.
Əsən yelin qanadını
Kirpiyiylə silib uçur...

Bir ümidin sabahına
Yol gedirəm aram-aram.
İnsanların yaddaşında
Yaşayaram ağac kimi
Yarpaq kimi yaşamaram...

### Söz var...

Bax yoxuşa-enişə,
Eniş-yoxuş - əndişə...
Əyil torpağı dinşə,
Dinşə uğurdan qabaq.

Yol düşməyib dolaşıq,
Uğur üstə yol - açıq...
Cığır darsa, yola çıx,
Yol var cığırdan qabaq.

Qaralmamış bulud get,
Niyyətini durult, get...
Nağılları unut, get,
Söz var nağıldan qabaq...

### Qu nəğməsi

Ürəyim uçunur ağ yağışlara,
Ürəyim uçunur, bilmirəm niyə.
Yağan yağışlara ovuc açmışam
Hər damcı kövrək bir nəğmədir deyə.

Yenə yağış yağır, bu yaz səhəri
Torpaqdan nəğmələr cücərəcəkdir.
Təbiət bir ayrı həvəsə düşüb,
Torpaq ayrı biçim bar verəcəkdir.

Məhəbbət ömürün qu nəğməsidi,
Bir dəfə oxunur və... əbədiyyət.
Mənim məhəbbətim o vaxtdan bəri
Sənə xatirədi, dünyaya - heyrət...

Mənim məhəbbətim durudan duru,
Yağışda yuyunmuş su nəğməsidi.
A gülüm, hər nəğmə könülə yatmır,
Mənim məhəbbətim qu nəğməsidi...

Bu yağan yağışın ağ damlaları
Qu tükü kimi
Yenə tellərinə toxunaydı kaş...
Mənim məhəbbətim qu nəğməsidi,
Yerlərə-göylərə oxunmamışdan
Sənin ürəyində oxunaydı kaş...

### Yolumuza

Bu ilin qışı tərs gəlib,
Qar düşəcək yolumuza.
Gözəlim, göylərin nəyi
var, düşəcək yolumuza.

Əzəl başdan dünya - gidi,
Çoxdan pas atıb kilidi...
Qar deyil, göyün sirridi,
Sirr düşəcək yolumuza.

Ağ istək yağa - təzə-tər...
Gülümsəyə budaq-çətir,
İl boyu gözlədim, yetər,
Şeir düşəcək yolumuza...

### Ay gözəl

O nə qəhərdi görürəm,
Üz üreyindən, ay gözəl.
Qoyma bir an uzaq düşə
Köz üreyindən, ay gözəl.

Dillənsənə, a qəlbi daş,
Közə dönür üzümdə yaş...
Yel əsməmiş dinəydi kaş
Söz üreyindən, ay gözəl.

De, nəyin ödəncidi bu,
Nəğməsini oxumur qu...
İnsaf elə, bir içim su
süz üreyindən, ay gözəl.

### Bir ağ göyərçinsən...

Nə geysən yaraşır, bu ki, sirr deyil,
Özün başdan-başa bir yaraşıqsan.
Dünyanın işığı öləziyərdi,
Dünya işığına düşən işıqsan.

Az-az görünürsən, axı nə vaxtdı
Qoyubsan Günəşi intizarda sən.
Səcdəyə gələcək sənə göy üzü,
Bir ağ göyərçinsən bu paltarda sən!..

### Onu tanımaq istəsən...

Günlərin birində Dan ulduzutək
Göylərdən könlümə enən sevgidən,
Gözümün nuruna dönən sevgidən
Hələ bir kimsənin xəbəri yoxdu.
Gündüzüm gecədi, gecələrimin
Üzümə güləsi səhəri yoxdu.
Bu dəli sevda
Çəməndə çiçəyə meh əvəzidi,
Çiçək ləçəyinə şeh əvəzidi.
Göydə ulduzların rəngi saralır
Qulaq kəsiləndə onun səsinə.
Günlərin birində görk olacaqdır
Sevgisiz sıxılan Yer kürəsinə!..

Mən sevdiyim gözəl, mən sevən gözəl
Elə bil gözəllik ilahəsidi,
Şirin təbəssümü incədən incə...
Sevgim dinə bilmir, dinib nə desin?
Desin? - necə desin, deməsin necə?..

İnsafsız gözəlim həsrət könlümü
Sevgi kitabıtək varaqlayaydı.
Yel əsə, saçları dolaşıq düşə,
Əllərim saçını daraqlayaydı...

Gözləyəm, gecikə, yollara baxam...
Gözümdən yollara yol salam - gələ...
Duya ki, cavabsız sualam - gələ...
Gələ məni məndən alan sevginin
Ömrünə-gününə son nəfəs kimi.
Gələ Füzulinin şeirlərindən
Qopan səda kimi, qopan səs kimi...

Ürək günahkardı...
Unutmaq üçün
Həsrət ocağında dağ olmalıyam,
Özüm öz içimdə boğulmalıyam.
Gündə neçə dəfə ölüb-dirilmək
Onsuz da ruhumu alıb, təzədən
Ruhsuz bədən kimi doğulmalıyam...

...Sevdiyim gözəlin gözləri - qara,
Sevdiyim gözəlin sözü şeirdi,
Ocağı şeirdi, közü şeirdi,
Tanrı xoş günündə yaradıb onu,
Yerişi, duruşu, özü şeirdi...

Nə deyim, ay gözəl, bu payız günü,
O adda gözəllik ilahəsinin
Hüsnünə heyrandı dünya büsbütün.
Bir dəfə güzgüyə baxmağın bəsdi
Mən sevən gözəli tanımaq üçün!..

### Yoxdu

Fələyə bel bağlama,
Arşını, bezi yoxdu.
Az verər, çox istəyər,
Çörəyinin duzu yoxdu.

Duman olub çökürəm,
Sözdən şirə çəkirəm.
Tapdanıb birəm-birəm,
Salamat izi yoxdu.

Sevgidimi? - təklənib,
Torpaqdımı? - ləklənib...
Qəlbim sözlə yüklənib,
Qəlbimin sözü yoxdu.

Bu, istəkdi, bu qordu,
Həsrət dizimi yordu...
Sevgimin gözü kordu,
Gözümün gözü yoxdu.

Elinizin adı var,
Adı var, səyyadı var...
Sən adda cəlladı var,
Sən adda qızı yoxdu...



# "Güclü dövlətin güclü ordusu olmalıdır"

## 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününə həsr olunmuş respublika uşaq incəsənət məktəblərinin şagirdləri arasında plakat üslublu əsərlərdən ibarət sərgi-müsabiqəsi

Respublika uşaq incəsənət məktəbləri şagirdlərinin yaratdığı rəsm əsərlərində dövlətçiliyin mühüm atributu olan milli ordunun güc və qüdrətinin, milli istiqlal ideologiyasının, müstəqil Vətənə məhəbbətin tərənnümü gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, istedadlı uşaq, yeniyetmə və gənclərin aşkara çıxarılması və dəstəklənməsi, respublikada təsviri sənətin inkişaf etdirilməsi və təbliğ olunması məqsədi ilə Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününə həsr olunmuş "Güclü dövlətin güclü ordusu olmalıdır" adı altında respublika uşaq incəsənət məktəblərinin şagirdləri arasında plakat üslublu əsərlərdən ibarət sərgi-müsabiqə keçirilir.

Müsabiqə 1 mərhələdən ibarətdir.

Rəsm işlərinin mövzusu: Vətənpərvərlik və milli ordu quruculuğunda varislik ənənəsi, dövlətçiliyin əsas atributu olan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin güc və qüdrətinin tərənnümü və s.

Müsabiqə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən sərgi-müsabiqənin təşkili və keçirilməsi üzrə yaradılmış İşçi qrupu tərəfindən həyata keçirilir.

Qalibləri və fərqlənən iştirakçıları müəyyən etmək üçün mədəniyyət və incəsənət xadimlərindən, peşəkar rəssamlardan ibarət münsiflər heyəti yaradılır. Münsiflər heyətinin qərarı protokolla rəsmiləşdirilir. Münsiflər heyətinin qərarı qətidir və müzakirə olunmur.

Hər yer üçün 4 nəfər olmaqla müsabiqə qaliblərinə - Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin müxtəlif dərəcəli diplomları (I yeri tutan iştirakçıya I dərəcəli diplom, II yeri tutan iştirakçıya II dərəcəli diplom, III yeri tutan iştirakçıya III dərəcəli diplom, IV yeri tutan iştirakçıya IV dərəcəli diplom) və hədiyyələr, digər iştirakçılara həvəsləndirici diplomlar və fəxri fərmanlar, iştirakçıların müəllimlərinə fəxri fərmanlar təqdim ediləcəkdir.

Müsabiqənin sonunda Müslüm Maqomayev adına 26 nömrəli 11 illik musiqi məktəbinin müəllim və şagirdlərinin təqdimatında musiqi nömrələrindən ibarət konsert proqramı təşkil ediləcəkdir.

---

Gizir Hacıyev Ruslan Sadəddin oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Məmmədov Şərafəddin Telman oğluna 2015-ci ildə verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 292
Nüsxə 3950